**Azərbaycan Akkreditasiya Mərkəzi**
**Uyğunluğu qiymətləndirən qurumun akkreditasiya attestatının qüvvədə olma müddətinin bərpası haqqında**

**Qərar № 0057-19 UQQ AB**

**Bakı şəhəri** **09 iyul 2019-cu il**

Azərbaycan Metrologiya İnstitutunun Ölçmə vasitələrinin yoxlanması və kalibrlənməsi departamentinin laboratoriyaları Azərbaycan Akkreditasiya Mərkəzi tərəfindən 05 oktyabr 2017-ci il tarixində akkreditasiya edilmişdir (Attestat: AZ 09.0252.01.17).

"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 10.1-ci maddəsinin və Azərbaycan Metrologiya İnstitutu ilə Azərbaycan Akkreditasiya Mərkəzi arasında bağlanmış 09.09.2017-ci il tarixli 16a saylı Akkreditasiya müqaviləsinin 3.2 və 4.3-cü bəndlərinin tələbləri Azərbaycan Metrologiya İnstitutu tərəfindən pozulduğuna görə ona verilmiş akkreditasiya attestatının qüvvədə olma müddətinin dayandırılması barədə qərar qəbul edilmiş, qanunun və müqavilə öhdəliklərinin yerinə yetirilməsi üçün vaxt verilmişdir. Lakin verilmiş vaxt ərzində Azərbaycan Metrologiya İnstitutu tərəfindən öhdəliklər icra edilmədiyinə görə Azərbaycan Akkreditasiya Mərkəzinin 19 fevral 2019-cü il tarixli qərarı ilə Azərbaycan Metrologiya İnstitutunun laboratoriyalarına verilmiş 05 oktyabr 2017-ci il tarixli AZ 09.0252.01.17 nömrəli akkreditasiya attestatı ləğv edilmişdir.

Sonradan Azərbaycan Metrologiya İnstitutu Azərbaycan Akkreditasiya Mərkəzinin 19 fevral 2019-cu il tarixli İNN 0057 – 18 UQQ AL nömrəli qərarının ləğv edilməsi tələbinə dair iddia ərizəsi ilə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət etmişdir.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 10 may 2019-cu il tarixli 2-1(81)-2204/2019 saylı qərardadı ilə işə mahiyyəti üzrə baxılıb qurtaranadək müvəqqəti xarakterli müdafiə tədbiri kimi Azərbaycan Akkreditasiya Mərkəzinin 19 fevral 2019-cu il tarixli İNN 0057–18 UQQ AL nömrəli qərarının icrasının dayandırılması qərara alınmışdır. Həmin qərardadın icrası ilə əlaqədar Azərbaycan Akkreditasiya Mərkəzinin 19 iyun 2019-cu il tarixli qərarı ilə 19 fevral 2019-cu il tarixli İNN 0057 – 18 UQQ AL nömrəli qərar ləğv edilmişdir.

Azərbaycan Metrologiya İnstitutunun Ölçmə vasitələrinin yoxlanması və kalibrlənməsi departamentinin laboratoriyalarının akkreditasiya tələblərinə cavab verib-vermədiyini müəyyən etmək mümkün olmadığına görə Azərbaycan Akkreditasiya Mərkəzinin 25 iyun 2019-cu il tarixli 0057- UQQ AL-AD nömrəli qərarı ilə 05 oktyabr 2017-ci il tarixli AZ 09.0252.01.17 nömrəli akkreditasiya attestatının qüvvədə olma müddəti təkrarən müvəqqəti olaraq dayandırılmışdır.

Azərbaycan Metrologiya İnstitutu akkreditasiya attestatının qüvvədə olma müddətinin bərpası ilə əlaqədar Azərbaycan Respublikasının Baş nazirinə müraciət etmişdir.

Azərbaycan Respublikasının Baş nazirinin birinci müavininin 16/3069-12 nömrəli 04 iyul 2019-cu il tarixli dərkənarını və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin ASİ MDX-05/01-5/2043 nömrəli 08 iyul 2019-cu il tarixli məktubunu rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Akkreditasiya Mərkəzinin 25 iyun 2019-cü il tarixli 0057-UQQ AL-AD nömrəli qərarı ləğv edilsin və Azərbaycan Metrologiya İnstitutunun Ölçmə vasitələrinin yoxlanması və kalibrlənməsi departamentinin laboratoriyalarına verilmiş AZ 09.0252.01.17 nömrəli 05 oktyabr 2017-ci il tarixli akkreditasiya attestatının qüvvədə olma müddəti bərpa edilsin.
2. Qərarın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə çatdirilması təmin edilsin.

**Baş direktor** **Namiq Əliyev**